# Zaqatala: təmizliyi və gözəlliyi ilə də tanınan şəhər

**Zaqatalanın rayon mərkəzindən başlayıb bütün yaşayış mərkəzlərindən yolunu salsan təmizliklə gözəlliyin nə qədər vəhdət təşkil etdiyinin canlı şahidi olarsan. İsti yay günlərinin birində jurnalist həmkarımla burada qonaq olduğum vaxt səhər tezdən, şəhərin gəzintisinə çıxanda kommunal müəssisələri kombinatı işçilərinin əzmkarlıqla çalışdıqlarına həsəd apardım. Nə üçün belə sübh tezdən işə başladıqlarını, həm də çox tələskən işlədiklərinin səbəbini soruşanda cavabları bu oldu.**







—Adamlar küçələrə çıxana, iş yerlərinə, eləcə də ayrı-ayrı ünvanlara yola düşənə, təmizliyi, səliqə-sahmanı başa çatdırmalıyıq ki, hər yan təmiz görünsün. Təmizlik həm də sağlamlıqdır. Biz də təmiz havada təmizlik yaratmaqdan zövq alırıq. Həmsöhbətlərim onu da dedilər ki, hansı ünvandan yolunuzu salsanız iş yoldaşlarımızı da bizim kimi görərsiniz. Kommunal işçilərindən onu da eşitdik ki, gündən-günə inkişafda olan, abadlaşan, yenidən qurulan Zaqatalanı təmiz və gözəl saxlamaq hər bir vətəndaşın müqəddəs borcudur. Onlar şəhərin 36,2 hektar ərazisinin təmizliyinə, səliqə-sahmanına hər gün belə qayğıkeşliklə yanaşırlar. Şəhərdə hamı bu sadə zəhmət adamlarına hörmətlə yanaşır, səliqə-sahmanlı yollarda gəzəndə, park və meydanlarda şən və mənalı istirahət keçirəndə çox sağ ol deyirlər.

Zaqatala özünün bir-birindən ətirli, bər-bəzəkli gülləri ilə də tanınır. Onun qızılgülünün, Lavandasının ətrindən, müxtəlif növ şam ağaclarının, bəzək kollarının əsrarəngiz mənzərəsinə baxmaqla doymaq olmur. Bəli, burada yaşıllığa ilahinin bəxş etdiyi əsrarəngiz təbiətə hər gün sığal çəkilir, o daha da zənginləşdirilir. Kommunal müəssisələri kombinatının işçiləri 30,1 hektar yaşıllıq sahəsinə də lazımi səviyyədə xidmət göstərirlər. Burada lazım olan yaşıllıq ağaclarının, güllərin və kolların yetişdirilməsi üçün 1 hektarda tinglik salınmışdır.

Zaqatalanın gecələrinin də cəlbedici mənzərəsi olur. Hər yanı işıqlandırılan park və meydanlarının, küçələrinin gəzintisi də ürəyəyatımlıdır. Sözügedən müəssisənin kollektivi şəhərin işıqlandırılmasına da daim diqqətdə saxlayır, lazım gələn bütün xidmətləri göstərirlər.

Mənzil istismar idarəsindən aldığımız məlumatda bildirilir ki, balanslarında olan 40 ictimai yaşayış binasının kommunal şəraitlərinin təmin olunması, ehtiyac olanda onların fasadlarının gözəllik görkəmini Zaqatalaya xas olan formaya gətirilməsi üçün lazımi köməkliklər göstərilir. Həmin binaların 3-ü istilik sistemləri ilə tam təmin olunmuşdur. Digər binalarda da bu məsələnin həlli istiqamətində əməli tədbirlər həyata keçirilir. Şəhərin ekologiyasına, təmizliyinə xələl gəlməməsi məqsədilə 40 binanın hamısının tüstü bacaları və ventilyasiya kanalları tam normal vəziyyətə salınmışdır. 2019-cu ildə mənzil fondunun əsaslı təmiri üçün ayrılmış vəsait hesabına şəhərin Heydər Əliyev prospektində, 28 May, H.Z.Tağıyev küçələrində, Azərbaycan prospektindəki bəzi binalarda da müəyyən təmir, bərpa işləri görülmüşdür. Bu ilin may ayının 19-da baş verən təbii fəlakət nəticəsində 28 may və Nizami küçələrindəki, Heydər Əliyev prospektindəki bir neçə binanın dam örtüklərinə dəymiş ziyanlar rayon rəhbərliyinin dəstəyi ilə daxili imkanlar hesabına aradan qaldırılmışdır. Şəhərin abadlığı üçün ayrılmış vəsait hesabına da görülən işlər yetərincədir. Bütün bunlar təmizlik və gözəlliyə güclü təkan olmaqla yanaşı, şəhər sakinlərinin, eləcə də ölkəmizin və dünyanın ayrı-ayrı ünvanlarından bura pənah gətirənlərin mənalı istirahətlərinə geniş imkanlar yaradır.

**Rasim AMANOV,**
**"Respublika".**

Respublika.- 2019.- 13 dekabr.- S.6.